# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜSTƏQİLLİK DÖVRÜNDƏ ƏTRAF MÜHİT STRATEGİYASI

**Nəzrin Əlizadə**

*AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi*
*nazrinalizade24@gmail.com*

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi ekoloji siyasət bu gün öz bəhrəsini verir. Dahi Lider hər zaman ölkəsinə, xalqına, ana təbiətə xüsusi qayğı ilə yanaşmışdır.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev fəaliyyətində ölkəmizin ekoloji durumuna xüsusi diqqət və qayğı göstərir. Bununla bağlı aşağıdakı sərəncamlar imzalanmışdır:

"Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya",

"Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı",

"Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarəedilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya",

"Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı",

"Azərbaycan Respublikasında radon təhlükəsinin tədqiqi və azaldılması üzrə 2014-2018-ci illər üçün Tədbirlər Proqramı”.